# İordaniya mətbuatı Azərbaycanın üzləşdiyi mina problemindən yazıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun "Ermənistanın Azərbaycana qarşı təcavüzünün yaralarının sağalması: Mina təhlükəsi ilə mübarizə" başlıqlı məqaləsi 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü münasibətilə İordaniya mətbuatında geniş işıqlandırılıb.**




AZƏRTAC xəbər verir ki, məqalə Xarici İşlər Nazirliyinin "Diplomatiya Aləmi" jurnalının xüsusi buraxılışına istinadla nəşr edilib. Məqalədə Ermənistanın Azərbaycana qarşı törətdiyi mina terroru, 3400 nəfərin məhz minaların partlaması nəticəsində həyatlarını itirməsi, ərazilərimizin minalarla çirkləndirilməsi ilə əlaqədar keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtmalarında çətinliklərlə üzləşməsi və digər bu kimi məsələlər qeyd olunub.

Həmçinin vurğulanıb ki, Ermənistanın mina xəritələrini verməkdən imtina etməsi Azərbaycanda minalarla mübarizə işini çətinləşdirib. İşğalçı ölkə beynəlxalq təzyiq altında cəmi 25 faiz dəqiqliyi olan mina xəritələrini təqdim edib və Vətən müharibəsindən sonra qeydə alınan mina partlayışları bu natamam xəritələrdə göstərilməyən ərazilərdə baş verib. Bu isə Ermənistan tərəfindən insan həyatına və beynəlxalq humanitar hüquqa qarşı nümayiş olunan etinasızlığın bariz nümunəsidir.

Məqalədə Azərbaycanda minatəmizləmə işlərinin 90 faizdən çoxunun milli resurslar hesabına maliyyələşdirildiyi də bildirilib. Eyni zamanda sülhə, insan haqlarına və təhlükəsiz həyata dəstək olmaq üçün Azərbaycanda minatəmizləmə işlərinin daha da gücləndirilməsi və intensivləşdirilməsi işlərinə beynəlxalq dəstəyin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan.- 2025.- 6 aprel (№66).- S.8.